*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 199 (29171) 11 sentyabr 2019-cu il, çərşənbə*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ



*Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

## "Bir kəmər, bir yol" strategiyası tranzit imkanlarımızı genişləndirir

**Avrasiyanın mərkəzində, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək yolunun vacib ölkələrindən biridir. Bu gün respublikamız öz tarixi ənənələrinə söykənərək, beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında fəal iştirak edir. Ulu öndər Heydər Əliyev Azərbaycanın coğrafi və iqtisadi imkanlarını düzgün qiymətləndirərək, ölkəmizin beynəlxalq ticarət daşımalarında fəal iştirakı ilə bağlı bir sıra əməli işlər görüb. Bu istiqamətdə ümummilli liderin təşəbbüsü ilə 1998-ci ilin sentyabrında Bakıda 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə "TRASEKA - tarixi İpək yolunun bərpası" beynəlxalq konfransı keçirilib. Məhz bu önəmli toplantıda Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulub.**

Ulu öndərin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanın hərtərəfli inkişafı ilə paralel, ölkəmizin nəqliyyat-tranzit potensialının müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər reallaşdırılır. Azərbaycandakı 6 beynəlxalq hava limanı, Bakı yük terminalı, Ələt ticarət limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını gerçəkləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti respublikamızın nəqliyyat-tranzit sahəsində qısa müddətdə əldə etdiyi uğurlardır.

Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da güclənməsi üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.



Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Respublikamız Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə səfəri zamanı "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan "İpək yolu iqtisadi" kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan rəsmiləri müxtəlif görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin bu təşəbbüsə təkcə siyasi dəstək verməklə kifayətlənmədiyini, həm də onun icrasına özünün iqtisadi potensialı və nəqliyyat-tranzit imkanları ilə əməli töhfələr verməyə hazır olduğunu bəyan ediblər.

*(ardı 3-cü səhifədə)*

## Bakı dinlər və sivilizasiyalararası dialoq mərkəzidir

**Dövlətə və xalqa başucalığı gətirən əksər faktları insanlar özləri yaradırlar. Məsələn, Yaponiyada olduğu kimi. Elə gənc müstəqil dövlət olan Azərbaycanda da xalqa və dövlətə üzağlığı gətirən bir çox məsələlər vardır ki, onlar bilavasitə insan faktoru ilə bağlıdır. Amma elə faktlar da vardır ki, onlar ölkəyə Tanrının bəxş etdiyi şans kimi qiymətləndirilir. Məsələn, Azərbaycanın Şərq ilə Qərbin, Şimal ilə Cənubun, Asiya ilə Avropanın qovuşuğunda yerləşməsi Tanrının bizə bəxş etdiyi xoşbəxtlikdir.**



### Dünyanın 13, ölkəmizin isə 28 ali təhsil ocağında Azərbaycan multikulturalizmi tədris edilir

Ölkəmizin yerləşdiyi coğrafi məkan təkcə siyasi və iqtisadi baxımdan deyil, həm də mədəni --mənəvi baxımdan bizə bir çox üstünlüklər verir. Belə ki, respublikamız müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Yüzlərlə mənbədən oxuyuruq ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, ölkəmizin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Alimlər haqlı olaraq yazırlar ki, Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant həyat tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Elmi kitablarda yazılır ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Bundan başqa, Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır.

Ulu öndər Heydər Əliyevin gənc müstəqil Azərbaycan dövləti üçün formalaşdırdığı çoxmədəniyyətlilik məfkurəsi 2003-cü ilin payızından sonra da uğurla davam etdirilir. Həmin prinsiplərə uyğun olaraq, tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi təsis edilmiş, 15 may 2014-cü il tarixli sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

*(ardı 6-cı səhifədə)*



**Patruşevin Bakı müzakirələri: qlobal və regional geosiyasi reallıqlar fövqündə**

▸▸5



**Ermənistan yeni inqilabın astanasındadır**

▸▸6



**Bu il Azərbaycanda 3 milyon 228 min 330 ton taxıl toplanılıb**

▸▸7



***Donald Tramp:* Əfqanıstandan çıxmaq istəyirik...**

▸▸8

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 387** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, xüsusi rütbəsi olan əməkdaşlara ərzaq payı əvəzinə verilən aylıq pul kompensasiyasının məbləğinin, habelə əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 12 avqust tarixli 183-20 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 22 aprel tarixli 185-9 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1257 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar cari ilin sonunadək tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2019-cu ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aylıq pul təminatının artımı ilə əlaqədar olaraq bu Qərarın 1-ci hissəsində göstərilən xüsusi rütbəsi olan əməkdaşların əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanunu ilə bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin büdcədən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərini müəyyən etsin.

8. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

9. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, xüsusi rütbəsi olan əməkdaşlara ərzaq payı əvəzinə verilən aylıq pul kompensasiyasının məbləğinin, habelə əməkdaşların xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 12 avqust tarixli 183-20 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

10. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 104-4 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 380-14 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 aprel tarixli 172-12tm nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 185-9 nömrəli Qərarı ləğv edilsin.

11. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 388** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 30 avqust tarixli 363-27 nömrəli, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 2 may tarixli 206-11 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1252 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

7. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

8. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli Qərarı ləğv edilsin.

9. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 avqust tarixli 363-27 nömrəli Qərarı ləğv edilsin.

10. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 184-8 nömrəli Qərarı ləğv edilsin.

11. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 141-6 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aparatının Xüsusi təyinatlı idarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 347-26 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 206-11 nömrəli Qərarı ləğv edilsin.

12. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 390** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1253 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

7. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 may tarixli 112-12 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

9. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 391** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 2 may tarixli 205-10 nömrəli, "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 10 may tarixli 215-12 nömrəli və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər edilməsi barədə" 2019-cu il 10 iyun tarixli 263 nömrəli qərarlarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1254 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) və rütbə maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) və rütbə maaşlarının məbləğlərini müəyyən etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

7. "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və kursantlar istisna olmaqla) aylıq pul təminatının, ərzaq payı əvəzinə pul kompensasiyasının və mülki işçilərinin əməkhaqlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 15 sentyabr tarixli 213-25 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

9. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 iyul tarixli 305-23 nömrəli Qərarı ləğv edilsin.

10. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 205-10 nömrəli Qərarı ləğv edilsin.

11. "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 215-12 nömrəli Qərarı ləğv edilsin.

12. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 142-7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 iyun tarixli 263 nömrəli Qərarı ləğv edilsin.

13. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 392** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1258 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin (aparat) dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin tabeliyində olan qurumlarda çalışan dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (4 nömrəli əlavə).

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin dövlət büdcəsindən maliyyələşən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2019-cu ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

6. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar olaraq bu Qərarın 1-ci hissəsində göstərilən hərbi qulluqçuların əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanunu ilə bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

8. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarının 1-ci, 2-ci, 3-cü hissələri ləğv edilsin.

9. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 04 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

10. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

11. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***



# Milli Məclisin sədri Almaniyaya səfər edib

***❒ Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Almaniyanın paytaxtı Berlinə səfər edib.***



Oqtay Əsədov sentyabrın 9-da Almaniya Bundesratının birinci vitse-prezidenti, Berlin şəhərinin meri Mixael Müller, Almaniya Bundestaqının prezidenti Volfqanq Şoyble, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Yohannes Kars və qrupun digər üzvləri ilə görüşlər keçirib.

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, eləcə də parlamentlərarası əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə münasibətlərin dinamik inkişaf etməsi, Azərbaycan və Almaniya arasında baş tutan yüksək səviyyəli səfərlər, hər iki ölkənin parlamentində fəaliyyət göstərən aidiyyəti dostluq qruplarının ikitərəfli münasibətlərə verdiyi töhfələr, Milli Məclis və Bundestaq deputatları arasında beynəlxalq təşkilatlar səviyyəsində mövcud olan konstruktiv əməkdaşlıq xüsusilə vurğulanıb.

Milli Məclisin sədri Azərbaycanın Avropa, o cümlədən Almaniyanın enerji təhlükəsizliyinə töhfələri, regionda həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələri, Cənub Qaz Dəhlizinin icrası, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, ölkəmizin çətin geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütməsi, eləcə də Ermənistanın hərbi təcavüzünün nəticələri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə məlumat verib. Oqtay Əsədov Almaniya Bundestaqının Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamə qəbul etməsini məmnunluqla xatırlayaraq, Almaniyanı Minsk qrupunun üzvü kimi münaqişənin həllinə fəal töhfə verməyə çağırıb. O, Bundestaqın prezidenti Volfqanq Şoyble və Bundesratın birinci vitse-prezidenti Mixael Mülleri Azərbaycana səfərə dəvət edib.

Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın mühüm iqtisadi tərəfdaşı adlandırıblar və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsindən məmnunluq ifadə ediblər. Azərbaycanın regionda sabitləşdirici faktor olması, Avropa ölkələri ilə sıx əməkdaşlıq münasibətlərinin qurulmasına yönələn xarici siyasət yürütməsi, xüsusilə Almaniya ilə münasibətlərin dərinləşməsinə mühüm önəm verməsi, Almaniyanın müxtəlif bölgələri ilə əlaqələrin qurulmasına və cəmiyyətin müxtəlif sahələrində birbaşa təmasların və tərəfdaşlıqların meydana gəlməsinə maraq göstərməsi, ölkəmizdə alman irsinin dövlət səviyyəsində qorunması və alman dilinin tədrisinin geniş vüsət alması Almaniya tərəfdən məmnunluqla qarşılanıb. Alman parlamentariləri, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dəstək verməyə hazır olduqlarını qeyd ediblər.



Bundesratda keçirilmiş görüşdə, həmçinin Bakı və Berlin şəhərləri arasında əməkdaşlıq imkanları müzakirə edilib, paytaxt şəhərləri arasında turizm, təhsil, vətəndaş cəmiyyəti əlaqələrinin möhkəmləndirilməsinə hər iki tərəfin marağı ifadə olunub. Mixael Müller Berlin şəhərinin meri kimi bu istiqamətdə təşəbbüslərə dəstək verməyə hazır olduğunu bildirib.

Milli Məclisin sədri səfər çərçivəsində Bundestaqın plenar iclaslarının keçirildiyi tarixi Reyxstaq binası ilə də tanış olub. O, eləcə də Almaniya Azərbaycanlılarının Koordinasiya Şurasının əlaqələndiricisi Yaşar Musayevi qəbul edib.

Oqtay Əsədovu Milli Məclisin deputatları – Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Aqiyə Naxçıvanlı, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, eləcə də Milli Məclis Aparatının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti müşayiət edib. Görüşlərdə, həmçinin Azərbaycanın Almaniyada fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov iştirak edib.

***Vüqar SEYİDOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Berlin**

# Nəsimi – 7 böyük ozandan biri

***❒ Əlli il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) 600 illik yubileyi keçirilmiş, bununla həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı. Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi. Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz ulu öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda - İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı.***

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncama əsasən işıq üzü görən, oxuculara təqdim və ölkə kitabxanalarına hədiyyə edilən nəşrlər arasında, heç şübhəsiz, Nəsiminin əsərləri də yer almışdı. Hər kəsə o da yaxşı məlumdur ki, dövlətimizin başçısı Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq içərisində olduğumuz 2019-cu ili "Nəsimi ili" elan edib. Prezidentin bu sərəncamından irəli gələrək il ərzində xalqımızın ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş şair haqqında çox sayda elmi və mədəni tədbir keçirilib, araşdırmalar aparılıb, o cümlədən kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunub. Tədbirlər davam edir.




Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Bu barədə yayılan açıqlamadan xəbərdarsınız ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

"Zənnimcə, "Nəsimi ili"nə gözəl töhfələrdən birini də "Youtube" kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusif verdi. Onun "Şur" muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi "Nəsimi" kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirəlayiqdir. Onun xalq çalğı alətlərimizin müşayiəti ilə, milli, klassik və müasir musiqi elementlərini sintez edərək, xanəndə Təyyar Bayramovun, digər sənət adamlarımızın ifasından, bacarığından uğurla yararlanaraq hazırladığı parçanı internetin verdiyi imkanlar sayəsində işə gələrkən yolda dinlədim. Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin "Sığmazam" rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə - öz "Facebook" dostlarımla paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm".

***AZƏRTAC***

# ATƏT PA-nın sədri: Ermənistanın baş nazirinin Dağlıq Qarabağla bağlı səsləndirdiyi bəyanat danışıqlar prosesinin gedişinə zərbə vurur

***❒ Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ ilə bağlı səsləndirdiyi bəyanat münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurur.***

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ATƏT PA-nın sədri Giorgi Tsereteli söyləyib.



ATƏT PA-nın sədri deyib: "Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesinə zərbə vurur. ATƏT məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də bizim təşkilatımızın diqqət mərkəzindədir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik".

Onun sözlərinə görə, münaqişənin ədalətli həllinə nail olmaq üçün fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür.

# "Bir kəmər, bir yol" strategiyası tranzit imkanlarımızı genişləndirir

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev ikinci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunun dövlət başçıları səviyyəsində "Daha parlaq birgə gələcəyin qurulması" mövzusunda çıxışında ölkəmizin "Bir kəmər, bir yol"a verdiyi dəstəyə və bu çərçivədə əməkdaşlıq imkanlarına toxunaraq deyib: "Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyimizdən bəhrələnərək biz Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırdıq. Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Altı beynəlxalq hava limanı müasir nəqliyyat infrastrukturunun yaradılmasına növbəti töhfəmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Nəqliyyat Reytinq Agentliyi tərəfindən ən yaxşı regional hava limanı kateqoriyasında beş ulduza layiq görülüb. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir".

Dövlətimizin başçısı sözügedən çıxışında Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edə biləcəklərini vurğulayıb. Bildirib ki, müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla ölkəmizi təkcə mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr sırasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

"Bir kəmər, bir yol" strategiyasının icrası Azərbaycanın bir sıra dövlətlərlə əməkdaşlığının dərinləşdirilməsinə də mühüm təsir göstərib. Məsələn, adıçəkilən təşəbbüs artıq ölkəmizlə Latviya arasında da yeni tranzit imkanlarının açılmasına əlverişli şərait yaradıb. Bununla bağlı Latviyanın iqtisadiyyat naziri Ralf Nemiro mətbuata müsahibəsində Azərbaycanın Avropanın nəqliyyat imkanlarının yaxşılaşdırılmasına töhfəsindən danışaraq, Bakı-Tbilisi-Qars dəmir yolunun vacibliyini vurğulayıb: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycan üçün Şərq-Qərb tranzit dəhlizində vacib elementdir. Gələcəkdə bu dəmir yolu Çin və Mərkəzi Asiyadan Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Cənubi Avropaya yeni tranzit marşrutlarının inkişafına xidmət edəcək".

Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə üçün deyil, ümumilikdə Avrasiya regionunda yerləşən ölkələr üçün də iqtisadi baxımdan yeni imkanlar açır. Dünyanın ən böyük ixracatçı və ikinci ən böyük idxalçı ölkəsi olan Çinin də bu dəmir yoluna marağı yüksəkdir. Həmçinin bu dəmir yolu "Bir kəmər, bir yol" strategiyasının səmərəliliyini də artıracaq. Ona görə də, Çin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verir. Bir sözlə, Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış əldə etmiş olur.

"Bir kəmər, bir yol" layihəsi region üçün qlobal əhəmiyyət daşıyan layihələrdən biridir. Burada söhbət Çindən başlayan və Avropaya qədər uzanan yoldan gedir. Layihənin mahiyyəti ondan ibarətdir ki, Çindən yola çıxan sürücü az zaman itirməklə Avropaya qədər gedib çıxa bilsin.

"Bir kəmər, bir yol" Azərbaycan üçün vacibdir. Bu xəttin Azərbaycandan keçməsi nəzərdə tutulur. Xəzərin statusu müəyyənləşdikdən sonra sözügedən təşəbbüsün Azərbaycan ərazisində reallaşması imkanları xeyli artıb. Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından bu layihə çox əhəmiyyətlidir. Son illər "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri çərçivəsində Azərbaycandan həyata keçirilən beynəlxalq yükdaşımaların həcmində artımlar var. Ölkəyə daxil olan yüklərin təxminən 90 faizi tranzit olaraq digər ölkələrə aparılır.

Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətindən söz düşmüşkən, xatırladaq ki, bu nəqliyyat vasitəsi ilə hazırda hər ay 1 milyon ton yük daşınır. Daşımaların həcmi ötən illə müqayisədə artıb və bu artım davam edəcək.

Qeyd edək ki, ötən ilin oktyabr ayında açılan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Azərbaycan-Gürcüstan-Türkiyə hökumətləri arasında əldə edilən razılaşma əsasında həyata keçirilib. İlkin mərhələdə illik yükdaşıma 6,5 milyon ton, sərnişindaşıma isə bir milyon nəfərəcən olacaq.

Bakı-Tbilisi-Qars, həmçinin Azərbaycan vasitəsi ilə Çindən Avropaya malların çatdırılmasının müddətini əhəmiyyətli dərəcədə qısaldır. Bu isə marşrutu xüsusilə cəlbedici edir.

Latviyanın iqtisadiyyat naziri Ralf Nemiro bildirib ki, Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafı Latviya üçün vacib olsa da, ölkə Avropanın şimal hissəsinə qapı rolunu oynayır: "Latviya "Bir kəmər – bir yol" təşəbbüsü çərçivəsində Çinlə fəal əməkdaşlıq edir. Bu təşəbbüs, eləcə də Avrasiyada logistika zəncirinin digər marşrutları Azərbaycanla Latviya arasında yeni tranzit imkanları aça bilər. Biz hesab edirik ki, mövcud Şərq-Qərb marşrutları Qara dəniz və Latviya limanları arasındakı Şimal-Cənub marşrutları ilə bağlana bilər".

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsinə gəldikdə, R.Nemiro Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini də vurğulayıb: "Cənub Qaz Dəhlizi Avropanın Rusiya təbii qazından asılılığını azaltmağı nəzərdə tutduğu üçün Latviya bu layihəni Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə böyük töhfə kimi qiymətləndirir. Latviya layihəni alqışlayır və Avropada bütün təbii qaz bazarı üçün faydalı hesab edir. Yeni təbii qaz mənbələri və marşrutları enerji bazarına və istehlakçılara xeyir gətirəcək. Avropa İttifaqının ambisiyalı iqlim hədəflərinə baxmayaraq, təbii qaz enerji bazarında vacib rol oynamaqda davam edəcək və biz gələcəkdə uğurlu əməkdaşlığa ümid edirik".

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizi Cənubi Qafqaz qaz boru kəmərini (Bakı-Tbilisi-Ərzurum) genişləndirmək, həmçinin Türkiyədə TANAP qaz kəmərinin tikintisini və Avropada TAP qaz kəmərini genişləndirilməsi üzrə layihədir.

İyulun 31-də keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədə çıxış edən Prezident İlham Əliyev deyib: "İqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır ki, bu, dayanıqlı olsun. Qeyri-neft sektorunun inkişafı burada əsas rol oynayır. Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb. Cənub Qaz Dəhlizinin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda Cənub Qaz Dəhlizinin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir".

Bu gün ölkəmizin təşəbbüsü ilə reallaşdırılan və ötən il istifadəyə verilən Cənub Qaz Dəhlizi və onun əsas seqmenti olan TANAP layihələri isə Azərbaycan qazının Avropaya ixracını təmin edir. Belə ki, "Şahdəniz 2" layihəsi çərçivəsində hasil olunacaq qaz Cənub Qaz Dəhlizi ilə ötürüləcək. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. İlk qazın Avropaya isə 2020-ci ildə çatacağı nəzərdə tutulur.

Cənub Qaz Dəhlizi layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz Qaz Boru Kəməri (CQBK) və yeni tikiləcək TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Layihənin əsas məqsədi Avropaya qaz tədarükünün təhlükəsizliyinin təmin edilməsi və artırılmasıdır.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 394** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında**

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1255 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə)

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərara əsasən hərbi qulluqçuların pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitlərin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərarda nəzərdə tutulmuş artımla əlaqədar olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyində xidmət etmiş hərbi qulluqçulara və onların ailə üzvlərinə əmək pensiyalarının qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən hesablanmasını və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununda bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilməsini təmin etsin.

6. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

7. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

8. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarı ləğv edilsin.

9. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 395** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**"Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1261 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 330, № 3, maddə 613, № 12 (II kitab), maddə 2741) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissəsində "550", "495", "440" rəqəmləri müvafiq olaraq "660", "595", "530" rəqəmləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Dövlət peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış müəllimlərin, baş ustaların və istehsalat təlimi ustalarının aylıq vəzifə maaşı müvafiq olaraq bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, baş ustaların və istehsalat təlimi ustalarının aylıq vəzifə maaşından 25 faiz aşağı, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşı müvafiq olaraq bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşından 10 faiz aşağı müəyyən edilsin.";

1.3. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.4. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış baş ustaların aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.5. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış istehsalat təlimi ustalarının aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.6. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.7. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 396** **Bakı şəhəri, 6 sentyabr 2019-cu il**

**"Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 270 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1259 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 iyul tarixli 270 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1349; 2018, № 3, maddə 612, № 11, maddə 2432; 2019, № 4, maddə 750) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış müəllimlərin aylıq vəzifə maaşı bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşından 25 faiz aşağı, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmamış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşı isə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşından 10 faiz aşağı müəyyən edilsin.";

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2019-cu il sentyabrın 1-dən tətbiq edilir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 398** **Bakı şəhəri, 9 sentyabr 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 191, № 6, maddə 388, № 8, maddə 534; 2002, № 3, maddə 148, № 4 (II kitab), maddə 199; 2003, № 6, maddə 342; 2006, № 5, maddə 474, № 9, maddələr 819, 830; 2008, № 2, maddə 130; 2009, № 7, maddə 604; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1356; 2016, № 4, maddə 824, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 2, maddə 306, № 4, maddə 610, № 5, maddə 994) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2.6-cı yarımbəndə "daxili işlər," sözlərindən sonra "xüsusi dövlət mühafizə," sözləri əlavə edilsin.

2. 4.1-ci bəndin üçüncü abzasına "Dövlət Sərhəd Xidmətinin" sözlərindən sonra ", Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri və dördüncü abzasına "Dövlət Sərhəd Xidməti" sözlərindən sonra ", Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri əlavə edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***





# İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı artmışdır

**2019-cu il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz artaraq 1613,8 min nəfər olmuş, onlardan 902,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 711,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.**

Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilir ki, muzdla işləyənlərin 20,5 faizi təhsil, 18 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,9 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 12,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2019-cu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 587,7 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***

# İkinci Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalının proqramı açıqlanıb



**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 28-dən oktyabrın 1-dək keçiriləcək Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalında bir sıra yeniliklər olacaq. İkinci ildir təşkil olunan festival çərçivəsində Bakıda və şairin doğulduğu Şamaxıda 30-dək tədbir keçiriləcək.**

NƏSİMİ FESTİVALI
ŞEİR. İNCƏSƏNƏT. MƏNƏVİYYAT.

Builki festivalda kino sahəsində dinlərarası dialoq üzrə məşhur beynəlxalq SİGNİS mükafatına layiq görülmüş filmlərin nümayişi olacaq. Finlandiyalı rejissor Aki Kaurisməkinin "Ümidin o biri üzü" filmində fərqli dinlərə, mədəniyyətlərə və həyat tərzlərinə malik insanların anlaşması və dostlaşması əksini tapıb.

Silsilə tədbirlər çərçivəsində sentyabrın 28-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (IRCICA) birgə təşkilatçılığı ilə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı da start götürəcək.

Nəsimi festivalı çərçivəsində bu il həm də uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının iştirakı ilə "Ümidin yaradılması" sosial-mədəni layihəsi həyata keçiriləcək. Layihə üzrə dizayn kurslarına cəlb olunmuş 30 iştirakçı öz arzularını təsvir vasitəsilə əks etdirib və onların əl işləri sonra köynəklər üzərinə köçürülüb. Bu köynəklərin festival çərçivəsində nümayişi və satışı təşkil olunacaq. Layihənin məqsədi uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onlara məşğulluq imkanları yaratmaqdır.

Festival günlərində Bakı və Şamaxıda bir sıra sərgilər də olacaq: sentyabrın 28-də Bakıda Şirvanşahlar sarayında açılacaq "İrfani sirlər" sərgisində Azərbaycan, Türkiyə, Fransa və Özbəkistandan olan 10 rəssam və heykəltəraşın əsərləri nümayiş etdiriləcək. Saray ərazisini əhatə edən ekspozisiyada mənəvi həyat və ruh təkamülünün sirlərinə həsr olunan videoart, qrafika nümunələri, instalyasiya və kinetik obyektlər təqdim olunacaq.

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda isə VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılacaq.

Qala qəsəbəsində istifadəsiz sənaye anbarının divarları üzərində işlənmiş rəsm əsərlərindən ibarət "Danışan divarlar" incəsənət layihəsinin ictimai təqdimatı olacaq. Bu layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunacaq.

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" ("Ölümsüzlük odası") əsəri də ekspozisiyada nümayiş olunacaq. Oktyabrın 1-də açılışı olacaq sərgi 2020-ci il martın 31-dək davam edəcək.

Şamaxı rayonunda isə "Şamaxı antologiyası" (1468, Britaniya Muzeyi, London) əlyazmasına dair sərgi açılacaq. XV əsrdə Şamaxının mədəni mərkəz olduğunu, burada yüksək kitab mədəniyyətinin mövcudluğunu nümayiş etdirən bu şeir məcmusu Azərbaycan miniatür sənətinin ən gözəl incilərindəndir. Əlyazmadakı miniatürlər sərgidə müxtəlif üsul və texnikalarla təqdim olunacaq.

Şamaxıda, həmçinin İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq. Yüngül metal hissəciklərdən hazırlanan əsərin müəllifi rəssam Rəşad Ələkbərovdur.

Nəsimi Festivalı çərçivəsində bir sıra elan olunmuş müsabiqələrin nəticələri də açıqlanacaq: Azərbaycan Milli Xalça Muzeyinin söz ustadına həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq. Həmçinin Mədəniyyət Nazirliyinin "SÖZ" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri açıqlanacaq.

Festival çərçivəsində müxtəlif ölkələrin incəsənət xadimləri və qruplarının ifasında mənəviyyat axtarışlarını, dinlər və mədəniyyətlərarası dialoqu tərənnüm edən musiqi proqramları və tamaşalar da təqdim olunacaq. Bu proqramlarda ayrı-ayrı dövrlərə aid ruhani və müasir musiqi nümunələri səslənəcək, fiziki imkanları məhdud insanların sağlam şəxslərlə bərabərlik və birgəliyinin ifadəsi olan rəqsləri nümayiş etdiriləcək.

Festival çərçivəsində Almaniyanın "Horizonte" ansamblı, Əfqanıstanın "Zəhra" Orkestri, Kanadanın "Klara Furey" rəqs qrupu, Böyük Britaniyanın "Candoco" və "Lost Dog" rəqs qrupları, Estoniyanın "Tallinn Oğlanlar Xoru", İsrailin "Dudu Tassa & the Kuwaitis" qrupu maraqlı proqramlar təqdim edəcək.

Sentyabrın 29-da Şamaxının Meysəri kəndində Xalq artisti Nəzakət Teymurova Nəsimi poeziyası əsasında muğamlardan ibarət proqramla çıxış edəcək.

Həmin gün Azərbaycan Dövlət Filarmoniyasında isə Azərbaycanın tanınmış caz musiqiçisi Salman Qəmbərovun "Səmimi dialoqlar" layihəsi çərçivəsində Fransadan Mişel Qodar (serpent ifaçısı), Almaniyadan Marqrit Buxberger (barokko repertuarlı müğənni) və çinli Vu Vey (şenq ifaçısı) ilə birgə ifaları təqdim olunacaq.

Festival çərçivəsində sentyabrın 30-da Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində səhnələşdirilmiş poeziya axşamı keçiriləcək.

Həmin gün Opera və Balet Teatrında isə Çinin Anhui əyalətinin Huicin Teatrının təqdimatında "İztirablı könül" tamaşası nümayiş olunacaq. Ənənəvi XVIII əsr üslubunda olan tamaşa özündə teatr sənəti və musiqi, eləcə də akrobatika və pantomim elementlərini birləşdirir.

Festivalın bağlanış mərasimi oktyabrın 1-də Heydər Əliyev Mərkəzində keçiriləcək. Proqramda Azərbaycan incəsənət xadimləri, həmçinin ABŞ, Türkiyə, İran, İordaniya və Mərakeşdən ənənəvi musiqi ifaçıları iştirak edəcəklər.

Qeyd edək ki, festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır və ilk dəfə 2018-ci ildə keçirilib.

Budəfəki festival həm də şairin 650 illik yubileyinə təsadüf edir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Nəsimi Festivalının proqramı ilə aşağıdakı linkə keçid etməklə tanış olmaq mümkündür- https://nasimifestival.live/az/program/.

# Patruşevin Bakı müzakirələri: qlobal və regional geosiyasi reallıqlar fövqündə



**Con Boltonun Ukrayna, Moldova, Belarus, Polşa turnesinin analizi başa çatmamış Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Azərbaycana səfər etdi. Ekspertlər ABŞ Prezidentinin müşavirinin Şərqi Avropaya səfərini nə dərəcədə gözlənilməz hesab edirdilərsə, N.Patruşevin də Bakıya gəlişinə elə qiymət verməyə çalışdılar. Məsələ həm də N.Patruşevin avqust ayında Ermənistana səfəri fonunda maraq doğururdu. Bu cür müqayisələr təsadüfi deyil. Söhbət Avrasiya məkanında ciddi geosiyasi rəqabət aparan iki böyük dövlətin təhlükəsizlik məsələləri ilə məşğul olan rəsmilərinin geosiyasi baxımdan həssas olan regionlara səfərlərindən gedir. Onlar hansı təkliflərlə gəlmişdilər? C.Bolton və N.Patruşev ümumi şəkildə təhlükəsizlik məsələsinə əhəmiyyət verdiklərini ifadə ediblər. Ancaq konkret olaraq bu ifadələrin arxasında hansı faktlar dayanır? Xüsusilə N.Patruşev hansı məqamları müzakirə edə bilərdi? Bu kimi suallara cavab üzərində geniş dayanmağa ehtiyac gördük.**

### Cənubi Qafqaza ikinci gəliş: Patruşev nəyi müzakirə edib?

Nikolay Patruşevin avqustda İrəvana etdiyi ikigünlük səfərinə erməni ekspertlərin münasibəti birmənalı olmadı. Rusiya və Ermənistanın təhlükəsizlik sahəsində yaxından əməkdaşlığı faktdır, lakin bir sıra məqamlara ekspertlər istehza ilə yanaşdılar. Konkret olaraq, hansı detalların müzakirə edildiyi haqqında informasiya ala bilmədiklərindən gileylənən ekspertlər tərəflərin standart ümumi frazalardan istifadə etdiyinə diqqət çəkdilər. Yekun olaraq isə belə qənaət yaranmışdı ki, tərəflər müxtəlif məsələləri müzakirə etsələr də, qarşılıqlı anlaşmaya nail olunduğunu demək çətin məsələdir. Ekspertlər Nikol Paşinyanın lazımsız yerlərdə "suverenlikdən dəm vurması"nın Ermənistana zərər verdiyini də vurğulayırdılar.

Daha maraqlısı N.Patruşevin Azərbaycana səfəri öncəsi Ermənistan mətbuatında dərc olunan yazılarda özünü göstərib. İndi ermənilər yazırlar ki, N.Patruşev Ermənistanın ''Amulsar'' qızıl mədəninə amerikan-ingilis şirkətinin buraxılmaması üçün İrəvana göstəriş verməyə gəlibmiş. O gedəndən sonra N.Paşinyan həmin işlə bağlı iki nəfəri vəzifəsindən uzaqlaşdırıb.

Belə görünür ki, ya N.Patruşevin Ermənistanda apardığı müzakirələrin əsl məzmununu gizlətmək üçün müxtəlif şayiələr yayılır, ya da Rusiya rəsmisi İrəvanda erməni hakimiyyətini müəyyən məsələlərlə bağlı möhkəm tənbeh edib. Bir sözlə, bunlar ermənilərin öz işləridir. Lakin N.Patruşevin sentyabrın əvvəllərində Azərbaycana səfər etməsinə marağın böyük olması fonunda Ermənistan səfəri də düşündürücü görünür. Məsələ ondan ibarətdir ki, N.Patruşev Rusiyanın Təhlükəsizlik Şurasının katibi kimi ciddi səlahiyyətlərə malikdir. Və o, ''Amulsar'' kimi xırda məsələlərə görə İrəvana səfər etməzdi.

Rəsmi yayılan informasiyalardan görünür ki, N.Patruşev kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi, terror, ekstremizm və digər məsələlərlə yanaşı, dövlətlərarası əməkdaşlığın mühüm aspektlərini də müzakirə edib. Məsələn, Azərbaycanla hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi məsələsi müzakirə olunub, iki ölkə arasında münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edilib. Bundan başqa, hər iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrin inkişafında rolu vurğulanıb. Tərəflərin ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərini müzakirə edəcəyi bəyan edilib.

Azərbaycan ekspertləri daha konkret səviyyədə müzakirəsi ehtimal olunan məsələlərə də diqqət yetiriblər. Həmin sırada İranla bağlı vəziyyətin daha da mürəkkəbləşməsinin regionda meydana gətirə biləcəyi risklərin təhlili də vardır. Digər məsələ kimi Azərbaycan, Rusiya və İran dövlət başçılarının görüşünün təxirə salınması səbəbləri və N.Paşinyanın Dağlıq Qarabağla bağlı ifadə etdiyi məsuliyyətsiz və populist fikirləri göstərilir. Bunların fonunda N.Paşinyanın bir neçə müddətdir ki, vəziyyəti gərginləşdirən və faktiki olaraq, Azərbaycanı hərbi əməliyyatlara başlamağa təhrik edən bəyanatlarının müzakirəsi ağlabatan görünür. Ekspertlər hesab edirlər ki, N.Paşinyan bunu sifarişlə edir və məqsədi Ermənistanın müharibədə məğlubiyyətindən sonra Rusiyanı ittiham etməkdir. Bunun əsasında da Ermənistanı geosiyasi aspektdə o, Qərbə tərəf istiqamətləndirmək fikrindədir.

### "Böyük oyun"un fraqmenti: geosiyasi mübarizə güclənir

Doğrusu, bu mövqe o qədər də inandırıcı görünmür, çünki forpost ölkə Rusiyanın tam nəzarəti altındadır və Moskvanın icazəsi olmadan hərb meydanında bir addım belə ata bilməz. N.Paşinyanın özündənrazı danışmasının arxasında da məhz bu məqam dayanır. Yəni "Dağlıq Qarabağda hərbi əməliyyatlara başlasanız, Ermənistanla deyil, Rusiya ilə toqquşmalı olacaqsınız". Əlbəttə, rəsmi Bakı hər bir incəliyi çox yaxşı anlayır və hər hansı təxribata qətiyyən getməz.

N.Patruşevin səfərinin mühüm geosiyasi və təhlükəsizlik aspekti, bizcə, başqa məqamlardadır. N.Patruşevin məsul olduğu sahənin miqyasını nəzərə alsaq, burada qlobal proseslərin məntiqini unuda bilmərik. Konkret olaraq, ABŞ-İran, ABŞ-Türkiyə və ABŞ-Rusiya münasibətlərinin dinamikasına diqqət yetirmək lazımdır. Aydın görünür ki, Amerika bütövlükdə postsovet məkanında daha fəal siyasətə keçir. Bunun bariz nümunəsi Şərqi Avropada, konkret desək, Ukrayna, Belarus və Moldovada özünü göstərir. Buraya Polşanı da əlavə etmək gərəkdir. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin son səfər marşrutu bu baxımdan özündə xeyli informasiya daşıyır.

Və N.Patruşevin Cənubi Qafqaz səfəri həmin səfərlə demək olar ki, zaman baxımından sinxronluq təşkil edir. O, Tbilisiyə məlum səbəblərdən gedə bilmir. Ancaq İrəvan və Bakıya gəlir. Belə təəssürat yaranır ki, Cənubi Qafqazda da geosiyasi rəqabət şiddətlənə bilər. Amerika Şərqi Avropada olduğu kimi, Cənubi Qafqazda da antirusiya fəaliyyətini canlandıra bilər. Bu məsələ avtomatik olaraq regionda İran və Türkiyə faktorunu da aktuallaşdırır.

Konkret olaraq, Rusiya İrana qarşı hər hansı bir aksiyada Cənubi Qafqaz dövlətlərinin iştirak etməməsini istərdi. Eyni zamanda, Türkiyəyə qarşı da hansısa hərəkətin olmasını arzulamazdı. Bu məqam birbaşa Ermənistana aiddir. Onun Qərbdəki havadarları Ankaranın müstəqil siyasətinə zərbə vurmaq üçün ermənilərdən terror, ekstremizm və separatçılıqda istifadə etməyə çalışarlar. Moskva bilir ki, Türkiyə bu kimi cəhdlərin qarşısını qətiyyətlə alır və bu səbəbdən İrəvanın ağlını başına yığması lazımdır.

Əlbəttə, söhbət təhlükəsizlikdən getdikdə, obyektiv olaraq, müdafiə məsələsi də aktuallaşır. Bu baxımdan N.Patruşevin hərbi-texniki əməkdaşlığı inkişaf etdirməkdən bəhs etməsi təsadüfi deyil. Moskva Cənubi Qafqazdakı tərəfdaşlarını hərbi cəhətdən təmin etməklə həm onların başqalarının təsiri altına düşməsinə əngəl olur, həm də hərbi baxımdan özü üçün daha aydın olan bir mənzərə yaradır.

Bunların fövqündə isə ümumiyyətlə, ölkə rəhbərləri arasında əməkdaşlığın və şəxsi münasibətlərin yüksək səviyyədə olması da şərt kimi görünür. Rusiya və Azərbaycan rəhbərliyi hər iki məsələdə kifayət qədər yaxın münasibətdədirlər. Deməli, N.Patruşev Rusiya Prezidentinin belə bir münasibətdən məmnun olduğunu və onu davam etdirmək əzmini ifadə edib.

Qeyd edilənlərin fonunda regional təhlükəsizliyin təmini məsələsinin vacibliyi aydın görünür. Rusiya burada hansısa qarışıqlığın olmasında maraqlı olmadığını nümayiş etdirir. Çünki Moskva, faktiki olaraq, Avrasiyada birləşdirici funksiyasını yerinə yetirməyə başlayıb. Bunu təsdiq edən faktlardan biri Vladimir Putinin Hindistanın baş naziri Narendra Modi ilə görüşdə yeni güclü təşkilatın yarana biləcəyi mesajını verməsidir. O, G7-dən də böyük olacaq və Rusiya ilə yanaşı, Türkiyə, Çin, Hindistanın da iştirak edəcəyi yeni təşkilatın formalaşmasının mümkünlüyünü vurğulayıb.

Belə çıxır ki, Cənubi Qafqazın da daxil olduğu böyük bir geosiyasi məkanda ciddi proseslər gedir. Artıq yeni səviyyədə qüvvələr balansının formalaşma ehtimalı özünü göstərir. Coğrafiyaya baxsaq, Türkiyə, İran, Rusiya, Hindistan, Çin kimi böyük dövlətlərin bir yerdə olacağı təşkilatda Cənubi Qafqazın taleyi də həll oluna bilər. Bu zaman, təbii ki, hər bir ölkənin öz funksiyası olacaq. Məsələn, Ermənistan təlimatlar yerinə yetirən forpostdan yüksək status ala bilməz.

Azərbaycanla isə regional məsələləri məsləhətləşməlidirlər. Çünki Azərbaycan regional liderdir və konkret fəaliyyəti ilə geniş məkanda proseslərə təsir edə bilir. Məsələn, enerji təhlükəsizliyinin təminində, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqun təşkilində və "Bir kəmər, bir yol" layihəsinin reallaşmasında aktiv iştirak edir.

Beləliklə, N.Patruşevin Azərbaycan səfəri regional geosiyasi proseslərlə qlobal trendlərin kəsişməsində aktuallıq kəsb edir. Zaman Moskva-Bakı əməkdaşlığının perspektivinin yüksək olduğunu təsdiqləyəcək.

**NEWTİMES.AZ**

---

# Monrealda milli-mədəni dəyərlərimiz təbliğ olunub




**Kanadanın Kvebek vilayətinin Monreal şəhərində keçirilən 4 günlük festivala "Monreal Kanada-Azərbaycan Cəmiyyəti" də qatılıb. Əsasən Şərq ölkələrinin iştirak etdiyi festivalda hər xalq öz mədəniyyətini, musiqisini nümayiş etdirib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda deyilir ki, cəmiyyətin rəhbəri Rəna Müslümova bildirib ki, bu festivala qatılmalarının əsas səbəbi Vətənimizi daha yaxşı tanıtmaq, onu tərənnüm etmək olub: "Hər bir ölkə üçün ayrılan tanıtım çadırlarında şəkillər, suvenirlər, milli alətlər və sair əşyalar, suvenirlər nümayiş olunurdu. Mən də qərara gəldim ki, Azərbaycanı tanımayan insanlara ölkəmizi təqdim edək. Monrealda yaşayan diaspor fəallarımızla birlikdə 3 ildir ki, Azərbaycanı təmsil edib, milli-mədəni irsimizi təqdim edirik".

Cəmiyyətin könüllüləri tanıtım çadırına yaxınlaşan yerli insanlara ölkəmiz, mədəni və tarixi dəyərlərimiz haqqında ingilis və fransız dillərində məlumatlar verməklə, onlara bu bilgilərin əks olunduğu kitabçalar təqdim ediblər.

*Samirə ƏLİYEVA,*
*"Xalq qəzeti"*

---

# İsti Yupiterin atmosferində kalium tapılıb

**Astronomlar ilk dəfə olaraq isti Yupiterin atmosferində kalium atomlarını aşkar ediblər. İşin nəticələri ekzoplanetlərin atmosferində baş verən kondensasiya və ya fotoionizasiya prosesləri haqqında daha çox məlumat əldə etməyə imkan verir.**

Öz ulduzlarına yaxın olan isti yupiterlərin atmosferində natrium və kalium atomlarının olması təxminən 20 il öncə nəzəri olaraq təxmin edilmişdi. Hər iki element planetin öz ulduzunun diskinin qarşısından keçməsi zamanı optik spektrlərdə aydın udulma zolaqları vermişdir. Bu halda ulduzdan gələn işığın bir hissəsi planetin atmosferindən keçir və müxtəlif kimyəvi elementlər tərəfindən udulur ki, bu da atmosferin kimyəvi tərkibini təyin etməyə imkan yaradır.

Əvvəllər HD189733b və HD209458b ekzoplanetlərinin atmosferdə natrium aşkar edilməsi ilə əlaqədar işlər dərc olunmuşdu, lakin indiyə qədər isti Yupiterin atmosferində kalium atomunun etibarlı şəkildə qeydə alınması halları olmamışdır.

Astronomlar qeyd olunan ekzoplanetlərin yuxarı atmosfer təbəqələrində böyük dəqiqliklə kalium atomlarının və HD209458b atmosferində natrium atomları miqdarının



HD189733b atmosferindəkindən iki dəfə az olmasını aşkar ediblər. Fərz olunur ki, belə fərqlər planetlərin özlərinin yaranması prosesi ilə bağlı deyildir. Fərq, atmosferin yuxarı qatlarında fotoionizasiya və (və ya) atmosferin aşağı qatlarında metal buxarlarının kondensasiya prosesləri, həmçinin atmosferdə buludların meydana gəlməsi mexanizmlərinin müxtəlifliyi nəticəsində yaranır.

Əvvəllər dörd yeni isti yupiter tapılmışdır ki, onlardan biri, bu günə qədər məlum olan ən isti, qəribə orbitli ekzoplanetdir.

*"Xalq qəzeti"*

---

# Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edib

❐ ***Son dövrlər Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə azyaşlıların mənzillərdə köməksiz vəziyyətdə bağlı qapı arxasında və liftdə qalması barədə daxil olan əməliyyat məlumatlarının sayında artım müşahidə edilir.***

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ

Cari ilin iyul və avqust aylarında qaynar xəttə köməksiz vəziyyətdə qalan azyaşlılar barədə bağlı qapı arxasında qalma 42, liftdə qalma hadisəsi üzrə isə 33 əməliyyat məlumatı daxil olub. Ümumilikdə, 75 əməliyyatda 89 azyaşlı təhlükədən xilas olunaraq ailə üzvlərinə və yaxınlarına təhvil verilib.

Nazirlik bu kimi hadisələrin sayının çoxalmasını, mənzillərdə balacaların həyatına təhlükə törədə biləcək açıq elektrik naqilləri, elektrik plitəsi, qaz sobası, açıq eyvan və pəncərələr, düşə biləcək ağır əşyalar, kimyəvi maddələr və s. kimi amillərin mövcudluğunu nəzərə alaraq, valideynləri körpə və azyaşlılara qarşı diqqətli olmağa və onları nəzarətsiz qoymamağa çağırıb.

*"Xalq qəzeti"*

---

# "Güzəştli mənzil" sisteminin təkmilləşdirilməsi davam etdirilir

**"Elektron hökumət" portalı üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə 12 və 14 iyul 2019-cu il tarixlərində həyata keçirilmiş onlayn mənzil seçimi prosesi başa çatmış, seçim prosesi yekunlaşdıqdan sonra nüfuzlu beynəlxalq audit şirkəti "Ernst & Young" ("EY") "Güzəştli mənzil" sistemini kompleks audit yoxlamalarından keçirərək sistemdə aparılmış bütün əməliyyatları hərtərəfli təhlil edib və öz müsbət "SOC 3" rəyini təqdim edib.**



Mənzil İnşaatı Dövlət Agentliyindən verilən məlumata görə, agentlik tərəfindən istifadəyə verilmiş "Güzəştli mənzil" sistemi Azərbaycanda "SOC 2" və "SOC 3" rəylərini almış ilk və yeganə elektron sistemdir. Bu, sistem vasitəsilə göstərilən xidmətlərin təşkilinin nəzarətdə olmasını, mənzillərin satışı zamanı "Güzəştli mənzil" sisteminin hər bir istifadəçisinə bərabər seçim şəraitinin yaradılmasını, şəffaflığın və operativliyin təmin edilməsini təsdiqləyir.

Bununla yanaşı, Amerika Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (AICPA) müəyyən etdiyi təhlükəsizlik, konfidensiallıq, proseslərin bütövlüyü (tam, etibarlı və dəqiq), əlçatanlıq və fərdi məlumatların qorunması kimi tələblərinə uyğun olaraq "Güzəştli mənzil" sistemindən istifadə zamanı vətəndaşların rahatlığını təmin etmək məqsədilə müvafiq təkmilləşdirilmə işləri Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən müntəzəm olaraq davam etdirilir.

Yuxarıda sadalanan tələblərdən biri də mənzil seçimi prosesində iştirak edən istifadəçilər tərəfindən "CAPTCHA" (simvollardan ibarət avtomatlaşdırılmış kod) kodunun daxil edilməsi ilə bağlıdır. "Güzəştli mənzil" sistemində tətbiq edilən bu yenilik mənzil seçimi zamanı şəffaflığın təmin olunması, bərabər şəraitin yaradılması prinsipinin qorunub saxlanılmasına imkan verəcək, eyni zamanda sistemin təhlükəsizliyini daha da möhkəmləndirəcək.

*"Xalq qəzeti"*

---

# Şimali Koreya Yapon dənizinə doğru iki raket atıb



**Şimali Koreya çərşənbə axşamı günü Yapon dənizi istiqamətində iki raket buraxıb. Raketlərin Şimali Koreyanın qərbində yerləşən Nam-do əyalətindən buraxıldığı bildirilir. Raketin növü və təyinatı barədə məlumat açıqlanmayıb.**

Qeyd edək ki, Cənubi Koreya silahlı qüvvələri Şimali Koreyanı izləyir və döyüş hazırlığı vəziyyətindədir.

ABŞ Şimali Koreyadan raketlərin buraxılışından sonra bölgədəki müttəfiqləri ilə sıx əlaqə saxlayır.

Bu barədə Amerika administrasiyasının nümayəndəsi bildirib.

Qeyd edək ki, Şimali Koreya bundan əvvəl də Yapon dənizi istiqamətində iki raket buraxmışdı.

*"Xalq qəzeti"*

# Bakı dinlər və sivilizasiyalararası dialoq mərkəzidir

*(əvvəli 1-ci səhifədə)*

Bundan başqa, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdir.

Rəsmi materiallarda qeyd edilir ki, ölkəmizin iki fərqli sivilizasiya arasında körpü rolunu oynaması dövlətin xarici siyasət kursunda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Azərbaycan Avropa İttifaqının həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesini uğurla davam etdirir.

Məhz həmin inteqrasiyanın nəticəsidir ki, ölkəmizdə multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli tədbirlər, elmi konfranslar keçirilir. Müxtəlif ölkələrin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilmişdir. Bunu Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə əlaqələndirmək olar. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır.

Xüsusilə vurğulamalıyıq ki, ölkəmizdə bu istiqamətdə olan tədbirlərin keçirilməsində Heydər Əliyev Fondunun əvəzolunmaz xidmətləri vardır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində 2015-ci il sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmlş və "Parisin ürəyində Azərbaycan musiqisi" adlı konsert təşkil olunmuşdur.

Həmin tədbirlərdən bir il əvvəl – 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansın VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərarına əsasən 2016-cı il aprelin 25-27-də Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu keçirilmişdir. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfesiyaların, QHT-lərin nümayəndələri iştirak edirdilər.

Həmin forumun Azərbaycanda keçirilməsi ölkədə multikultural və tolerant mühitin olduğunun göstəricisidir. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya töhfələrindən biridir.

Ekspertlər yazırlar ki, multikulturalizmin ABŞ, İsveç, Avstraliya, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd olunanlara bariz nümunədir.

Yeri gəlmişkən, bu il martın 5-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransda dünyanın tanınmış dövlət, din və elm xadimləri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer bildirib ki, Azərbaycan dinlərarası və məzhəblərarası münasibətlərə görə bütün dövlətlərə nümunə ola bilər. Amerikalı qonağın fikrincə, Azərbaycanda multikulturalizmin ən gözəl forması mövcuddur. O, ölkəmizin bu sahədə xüsusi seçildiyini və bütün dini konfessiya nümayəndələrinə göstərdiyi münasibətin önündə, habelə dinlərarası və mədəniyyətlərarası əməkdaşlığın qlobal liderləri arasında olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan Prezidenti bu münasibətlərin qorunub saxlanılması üçün bütün səyləri göstərir: "Bugünkü konfrans Azərbaycandakı dini konfessiyalarla ABŞ-dakı yəhudi və yevangelist xristian icmaları arasında əlaqələrin qurulması və gələcək əməkdaşlığın daha da dərinləşməsi baxımından olduqca əhəmiyyətlidir."

***İ. MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Dünya Bankının vergi islahatlarına dəstəklə bağlı texniki yardım proqramı çərçivəsində görüləcək işlər müzakirə olunub

❐ ***Vergilər naziri Mikayıl Cabbarov Dünya Bankının Azərbaycan üzrə missiya rəhbəri Navid Hasan Naqvinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, görüşdə vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı Azərbaycanın vergi sistemində aparılan islahatlar, Dünya Bankının vergi islahatlarına dəstəklə bağlı texniki yardım proqramı çərçivəsində görüləcək işlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Dmitri Savelyev:* Təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsidir

❐ ***Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət prosesləri xeyli sürətlənməkdədir: cəmi bir həftə ərzində Azərbaycan nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib, Rusiya Təhlükəsizlik Şurasının katibi isə Bakıda öz həmkarı ilə görüşüb. Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu və digər proseslərin perspektivlərini şərh edir.***

***– Dmitri İvanoviç, iqtisadiyyat sahəsində Rusiya-Azərbaycan tərəfdaşlığının dinamikası bizim söhbətlərimizin daimi mövzusudur. Qarşılıqlı əmtəə dövriyyəsində vəziyyət necədir?***

– Bəri başdan qeyd etməliyəm ki, son illərdə Rusiya Azərbaycanın ticarət tərəfdaşlarının siyahısında davamlı olaraq aparıcı yerlərdən birini tutur, ölkələrimiz arasında ticarətin həcmi isə durmadan artır: cari ilin 7 ayı ərzində əmtəə dövriyyəsinin həcmi 1,6 milyard dollar olub. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çoxdur. Bu il yayda Azərbaycan Rusiyadan taxıl alınması üzrə rekord göstərib: Ulyanovsk vilayətindən ixrac edilən taxılın 70 faizi azərbaycanlı istehlakçılara göndərilib, Azərbaycana taxıl satan ənənəvi tərəfdaş olan Stavropol diyarı isə bu respublikaya 146 min ton taxıl yola salıb. Bu, bir il əvvəlki ilə müqayisədə üç dəfə çoxdur.

***– Bu yaxınlarda Bakıda başa çatmış biznes-missiya hər hansı yeni meyilləri aşkar edibmi?***

– Azərbaycanın təşəbbüsü ilə başlanmış bu pilot təcrübəsi uğurlu olub: Rusiyanın yeddi regionundan 30-dan çox şirkət öz potensialını Azərbaycan biznes birliyinə təqdim etməyə gəlmişdi. Qarşı tərəfin bu tədbirə marağı çox böyük idi: Azərbaycan tərəfindən 16 sahəni təmsil edən 150 müəssisə bu görüşə qoşulmuşdu. Biznes-missiya dövründə üç kontrakt imzalandı, daha bir neçə saziş isə ilkin razılaşma mərhələsindədir. Rusiyadan ixracın yeni perspektivli istiqamətləri arasında süd məhsulları, taxta-şalban, faner və tikinti armaturunun adlarını çəkmək olar. Azərbaycanlı tərəfdaşlar bu mallar üçün sifarişlərini bizə təqdim etməyə hazırdırlar.

***– Şərq İqtisadi Forumu azərbaycanlı sahibkarlarda maraq doğura bildimi?***

– Bu maraq qarşılıqlıdır. Üstəlik, dünyada iqtisadi inkişaf sürətinin azalması şəraitində Azərbaycan iqtisadiyyatı kimi inkişaf etməkdə olan iqtisadiyyat iri investorlarda güclü maraq oyadır. Fikrimcə, Odlar Diyarını çoxlu ciddi biznes təklifləri gözləyir. Forum özü isə Azərbaycan üçün ona görə maraqlıdır ki, o, qeyri-iqtisadi səbəblərə görə biznes əlaqələrini məhdudlaşdıran Avropa bazarları ilə müqayisədə siyasi şəraitin qat-qat sərfəli olduğu Asiya bazarlarına yol açır. Azərbaycan Avrasiya məkanında həyata keçirilən bir sıra layihələrdə fəal iştirak edir və bu meyil güclənməkdədir, çünki Azərbaycanın nəqliyyat-logistika potensialı qitə miqyasında inteqrasiyanı gücləndirir. Yeri gəlmişkən, forum müddətində Rusiya ilə Hindistan arasında imzalanmış sənədlər paketi gömrüklə bağlı və digər maneələrin çoxunu aradan qaldırır. Bu o deməkdir ki, Azərbaycanın dəmir yol və dəniz nəqliyyat imkanlarının cəlb edildiyi "Şimal-Cənub" nəqliyyat dəhlizi daha dinamik fəaliyyət göstərəcək. Bu da öz növbəsində, respublikanın regionda iqtisadi və siyasi mövqelərini xeyli gücləndirəcək.



***– Son vaxtlar Azərbaycan kibertəhlükəsizlik strategiyasının işlənib hazırlanması ilə məşğuldur. Bu strategiyanın zəruriliyi nə ilə bağlıdır?***

– Ölkələrimiz beynəlxalq terrorizm və transmilli cinayətkarlıqla bağlı, əvvəllər misli görünməmiş çağırışlarla üzləşir. Belə çağırışlardan biri texnoloji xarakter daşıyır. Dünya yeni dövrə - məlumat axınına nəzarət sistemlərinin rəqabəti dövrünə qədəm qoyub. Bu halda informasiya mühiti müxtəlif kibernetik hücumlar nəticəsində deformasiyaya məruz qalır. Buna görə də biz xarici informasiya təhlükəsizliyi sistemlərini birlikdə yaratmalıyıq və burada Rusiya Azərbaycana çox kömək edə bilər. Məsələn, bizim xüsusi xidmətlərin nümayəndələri azərbaycanlı həmkarlarına xəbərdarlıq ediblər ki, ilk baxışda heç bir şübhə doğurmayan kompüter oyunlarının və kvestlərin köməyi ilə gəncləri terror qruplarına cəlb etməyin yeni formaları yaranıb. Düşünürəm ki, bu xəbərdarlıq Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən ekstremistlərin vaxtında aşkar olunmasına kömək edəcək. Beləliklə, təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsinə çevrilir.

***Fəridə Abdullayeva, AZƏRTAC-ın xüsusi müxbiri***

**Moskva**

# Əli Kərimli və onun trol dəstəsi siyasi əxlaqsızlıq nümunəsidir



**Sizcə, radikal müxalifətin öncülü yarlığı ilə tanınan Əli Kərimli nə zamansa iqtidara gələrsə, respublikanın ictimai-siyasi həyatı necə dəyişər? Kimdən soruşum? Heç kimdən. Çünki, əvvəla, belə bir perspektiv o qədər qeyri-gerçəkdir ki, ciddiyə almağa dəyməz. İkinci, bu barədə Kərimliyə əks cəbhədən kim nə desə, qaragüruh "hurrey" deyib, "trol-mrol" qarışıq keçəcəklər "hücum"a və bağıracaqlar ki, ay, nə bilim, hakimiyyətin mövqeyidir, hakimiyyət öyrədib, daha nə, nə... Ona görə də, heç özümüzü dağa-daşa salmadan, onların öz cəbhəsinə göz gəzdirək, görək, hələ bir nə var-nə yox?**

Okeanın o tayında yuvalanmış keçmiş ANS-çi, pələ-pətrüs müxalif mövqeyi ilə tanınan İsmayıl Cəlilov adlı bir nəfər AXCP sədri ilə, onun siyasi hakimiyyətə daşımaq "əzmi"ndə olduğu "söz və mətbuat ideologiyası" haqqında, açıb sandığı, töküb pambığı... Səbəb nə imiş? – Səbəb o imiş ki, İsmayılın özü demişkən "4 min nəfərlik efir"ində Əli Kərimli haqqında ortabab bir tənqid səsləndirilibmiş. Bunun qarşılığında, Kərimlinin trol dəstəsi onu söyüşlərə qonaq edib...

İndi baxın, bu sözləri hakimiyyət təmsilçisi, iqtidara simpatiyalı kimsə demir, bu sözləri hakimiyyəti illərdir tənqid edən, bir çox hallarda bəlkə özü də əndazəni aşmış adam deyir. Deyir ki, "...AXCP-nin trolları tökülüşdü üstümə, iki gündür "feysbuk" və "yutub" səhifəmdə ana-ata söyüşlərinə məruz qalıram, iki gündür bu söyüşləri silməklə məşğulam. Adi bir tənqidə bu qədər söyüşlə cavab verən yaramaz bir qrupa nə deyəsən?!

...Mən sizin qurmaq istədiyiniz Azərbaycandan qorxuram. Əminəm ki, hakimiyyətə gəlsəniz, ölkəni 1992 – 1993-cü illərdə olduğu kimi yenə səfalətə, uçuruma sürükləyəcəksiniz.

...Əli Kərimov, nəyə görə ata-ana söyüşləri yağdırırsınız?! Bunlar hakimiyyətin yox, sənin tərəfdarlarındır. Tərəfdarlarına göstəriş ver ki, mediaya hücum etmək olmaz!

...Nədən qorxursunuz, niyə mediaya təzyiq göstərirsiniz? Sizin ardınızca gedən məxluqlar niyə mənim sosial şəbəkə səhifələrimi alçaqcasına təhqir edir?! Bu gün müxalifətdəsiniz, tərəfdarlarınız belə edir, iqtidara gəlsəniz jurnalistlərin başına nə oyun açacaqsınız? Budurmu Azərbaycana vermək istədiyiniz gələcək?!

...Hər gün danışmağa vaxt tapırsınız, lakin bir dəfə belə gələcək haqqında, platformanız haqqında danışmamısınız.

Mən sizin gələcəklə bağlı fikirlərinizi bilmək istəyərdim. Lakin görün tərəfdarlarınız hansı biabırçılığı yaradır? Belə liderlik olmur! Əbülfəz Elçibəyin irsini çamura bulaşdırmayın! Sizin yolunuzu gedənlər mənəviyyatsız qaragüruhdur.

...Əli Kərimli, açıqlayın, siz Azərbaycanın gələcəyini necə görürsünüz, müstəqil mediaya alçaqcasına hücum edən iqtidar quracaqsınız? Budurmu Azərbaycanda qurmaq istədiyin gələcək? Əgər bu deyilsə, niyə tərəfdarlarınız belə alçaq hərəkət edir? Sizin tərəfdarlarınız özünə çoban axtaran sürüdür.

Məgər Əli Kərimli peyğəmbərdir ki, onu tənqid etmək olmaz?! Siz hansı haqla müstəqil mediaya təzyiq edirsiniz? 4 min izləyicisi olan kanaldan qorxursunuz? Budurmu sizin azad, demokratik ideyalarınız? Ar olsun sizə!

Mən müxalifətdən belə alçaq hərəkət gözləmirdim, ana söyüşünə qədər eşitdim. Daha nə edəcəksiniz? Siz iqtidara gəlib medianı kökündən bağlayacaqsınız!? Sizin qurmaq istədiyiniz Azərbaycandan qorxuram!"

Kərimlinin ən kiçik tənqidə belə kərimsiz olduğu deyilirdi. O da deyilirdi ki, başçısı olduğu partiya içində "cubbulu" da olsa, diktaturafason bir ortam yaradıb. Hər gün söz azadlığından, demokratiyadan, bu plandakı dəm-dəstgahdan dəm vuran bu radikal siyasətçi (yaxud bloger), yeni medianın canına daraşdırdığı "trol-mrol" dəstəsini də havayı bəsləmir. Onlar söyüş üçün, təhqir üçün haqq alırlar.

Sözün bütün anlamlarında "o tərəflər"də olan İsmayılın uğradığı ağır söyüşlü trol hücumu göstərir ki, Kərimli vaxtilə Prezident Aparatında şöbə müdiri, dövlət katibi postlarını tutarkən müstəqil, müxalif mövqeli mediaya qarşı hansı dözülməz xətdə olubsa, illər keçdikdən sonra da, ordadır... O zamana – doxsanıncı illərə bəlkə də, bir balaca bəraət qazandırmaq olardı: müstəqilliyin ilk illəriydi, demokratik təsisatlar yeni-yeni yaranırdı və s. Bəs, indi niyə belə edirsiz? Bəs, özün indiki iqtidarın ünvanına olmazın tənqidlər yağdıra-yağdıra, nə təklif edirsən? – Söyüşmü? Təhqirmi? Göydən daş ələ bunların başına, Tanrı!

***Əkbər QOŞALI, Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri***

# Ermənistan yeni inqilabın ASTANASINDADIR

**Ermənistanda insanların həyat şəraitinin günbəgün pisləşməsi, sosial-iqtisadi böhranın dərinləşməsi, nəticədə hər il on minlərlə erməninin ölkəni tərk edərək qonşu ölkələrə, xüsusən Rusiyaya üz tutması haqqında dəfələrlə yazmışıq. Bu barədə məlumatları isə, təbii ki, əsasən Ermənistan mətbuatından, bu ölkədəki ayrı-ayrı saytlardan götürürük. Artıq belə sosial bəlalar təcavüzkar və terrorçu ölkədə insanların səbr kasasının daşmasına, yeni inqilab dalğasının yetişməsinə gətirib çıxarıb.**



Məsələ bundadır ki, keçən ilin əvvəllərində erməni əhalisi Nikol Paşinyanın hakimiyyətə gəlməsini kütləvi şəkildə dəstəkləmiş, ciddi dəyişikliklərin, sosial-iqtisadi tərəqqinin baş verəcəyinə inanmışdı. Lakin aradan bir il keçməmiş insanlar Paşinyanın da, əvvəlki dövlət və hökumət başçıları kimi, onları aldatdığını gördü, heç bir vədin yerinə yetirilmədiyinin şahidi oldular. Belə məlum oldu ki, baş nazir Paşinyanın bütün vədləri onun hakimiyyətə gəlməsinə və mümkün qədər uzun müddətə vəzifədə qalmasına xidmət edirmiş. Bu günə qədər nə iqtisadi sahədə dirçəliş baş verdi, nə insanların sosial problemləri həll olundu, nə də əhalinin güzəranı yaxşılaşdı. Bütün bunların əvəzində, Paşinyan tez-tez Dağlıq Qarabağa səfər etdi, münaqişə ilə manipulyasiya etməyə, danışıqları pozmağa çalışdı.

Burada bir məqamı da diqqətə çatdırmaq istərdim. Amulsar qızıl mədəninin "Lydian Armenia" şirkəti tərəfindən işlədilməsi ilə bağlı davam edən proseslər erməni cəmiyyətində hökumətlə xalq arasında fikir ayrılığının yaranmasına səbəb olub.

Hazırda Amulsar qızıl mədəni ətrafında siyasi xaos davam edir. Ermənistan hökumətinin düşdüyü isterik durum isə Nikol Paşinyanın onsuz da aşağı olan nüfuzunu zəiflədir.

Buna görədir ki, hazırda Ermənistan əhalisi yenidən inqilab əhvalına köklənib. Ermənistan KİV-in yaydığıməlumata görə, artıq bu istiqamətdə addımlar da atılır. Məsələn, ölkədə yeni yaradılmış Adekvat Partiyası məhz bu ideya ətrafında formalaşdığını bəyan edib. Partiyanın rəhbəri Artur Danielyan bəyan edib ki, ölkədə yaxın zamanlarda inqilab başlaya bilər və bunun üçün bütün şərtlər mövcuddur.

Onun fikrincə, artıq erməni xalqı Paşinyanın yalan vədlərindən, Qarabağ kartı ilə əhalini yuxuya verməsindən bezib. Ona görə də "Emənistanda yeni inqilab qaçılmazdır və bu, heç nədən asılı olmayaraq baş verəcək… Əsas odur ki, cəmiyyətimiz vahid tərkibli və eyni fikirlidir. Ötən ilin hadisələri göstərdi ki, biz hətta Avropa ölkələrindən də daha çox eyni fikrə, vahid tərkibə malikik. Ona görə də bu inqilabı idarə etmək imkanımız var", – deyə partiya sədri bildirib.

Görünən budur ki, artıq Ermənistanda Paşinyan hakimiyyəti tamamilə laxlayıb və cəmiyyət hər dəqiqə ona qarşı inqilaba başlamağa hazırdır.

Bundan başqa, bütün ölkə miqyasında Paşinyanın nüfuzunu aşağı salan faktorlardan biri də sabiq prezident, hazırda dəmir barmarlıqlar arasında olan Robert Koçaryanla bağlı baş verən hadisələrdir. Nikol hakimiyyətə gəldiyi ilk günlərdən Koçaryana qarşı düşmən mövqeyini ortaya qoymağa başladı və çox keçmədi ki, onun haqqında cinayət işinin açılmasına və nəhayət, eks-prezidentin həbsinə nail oldu.

Rusiya Prezidenti Vladimir Putinin bir neçə dəfə məsələyə qarışması Koçaryanın müvəqqəti də olsa, həbsdən azad olunması ilə nəticələndi. Amma Paşinyan da inad göstərərək sabiq prezidenti yenidən həbsə atdırdı. Bu, təbii ki, Moskvanın xoşuna gəlmədi.

Təsəvvürümüzün dəqiqləşməsi üçün xatırladaq ki, məsələnin kökündə Ermənistanda 2008-ci ilin fevralında keçirilmiş prezident seçkiləri durur. Həmin vaxt prezident kürsüsünü tərk etməli olan Koçaryan namizəd Serj Sarkisyanı dəstəkləmiş, səsvermə nəticəsində Sarkisyanın 52,8 faiz səs topladığı elan olunmuşdu. Bu isə digər namizəd, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanı narazı salmış, seçkinin nəticələrinin saxtalaşdırılması ilə bağlı ölkədə kütləvi etiraz aksiyaları başlamışdı.

Martın 1-də və 2-də etiraz aksiyaları genişlənib nəzarətdən çıxmaq təhlükəsi yaradanda Koçaryan mitinqin dağıdılması üçün güc tətbiqi barədə əmr vermişdi. Beləliklə, prosesə hərbi hissələr, xüsusi təyinatlı qüvvələr cəlb edilmiş, etirazçılara atəş açılmışdı.

Paşinyan hakimiyyətə gələn kimi dinc əhalinin gülləbaran edilməsində əsasən Robert Koçaryanı təqsirləndirdi. Nəticədə Koçaryan, sabiq müdafiə naziri Seyran Ohanyan, müdafiə nazirinin keçmiş müavini, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş katibi general Yuri Xaçaturov və Ermənistan baş nazirinin keçmiş müavini Armen Gevorkyan həbs edilərək məhkəmə qarşısına çıxarıldılar. Onlara qarşı konstitusiya quruluşunu devirmək, külli miqdarda rüşvət almaq, qanunsuz yolla əldə edilən vəsaitləri leqallaşdırmaq kimi ittihamlar irəli sürüldü. Bu il mayın 18-də isə İrəvanın birinci instansiya məhkəməsi Koçaryanı həbsdən azad etdi. Lakin iyunun 25-də Apellyasiya Məhkəməsi keçmiş prezidenti yenidən həbs etdi. Bütün bunlar təkcə Putinlə Paşinyan arasında münasibətlərin gərginləşməsinə səbəb olmadı, həm də Paşinyanın "dişinin sınması" ilə nəticələndi.

Daha sonra avqustun 31-də Rusiya Prezidenti Vladimir Putin yenidən dostluq jesti edərək 65 illiyi münasibətilə Robert Koçaryana məktub ünvanladı, onu təbrik etdi və "Rusiyanın dostu" adlandırdı. Hazırda məsələyə Ermənistanın Konstitusiya Məhkəməsi müdaxilə etməkdədir. Artıq bu instansiya Koçaryanın həbsinin qanuniliyini şübhə altına alıb. Oktyabrda isə Putinin Ermənistana səfəri baş tutacaq. Gözlənilir ki, həmin vaxta qədər Koçaryan azadlığa buraxıla bilər.

Lakin dünən məlum oldu ki, Paşinyan da dediyindən dönmək istəmir. Ermənistanın "Shame.am" nəşrinin yaydığı məlumata görə, Paşinyanın "Mənim addımım" bloku ilə birlikdə parlamentdə yer tutmuş "İşıqlı Ermənistan" partiyasının üzvü Arman Babacanyan bəyan edib ki, Ermənistanda baş vermiş bir çox cinayətlərin, o cümlədən, 1-2 mart 2008-ci il hadisələrinin səbəbkarı Putindir və ona qarşı cinayət işi açılmalıdır. Babacanyan indi bu məsələni ABŞ-ın ölkədəki səfiri ilə müzakirə etməyə hazırlaşır ki, o, Putinə qarşı cinayət işinin açılmasını Paşinyandan tələb etsin. Doğrudur, bu məsələnin başında Paşinyanın durduğunu söyləmək hələ tezdir, amma "xoruzun quyruğu" da aydın görünməkdədir.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# Bu il Azərbaycanda 3 milyon 228 min 330 ton taxıl toplanılıb



***❒ Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sektor da keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində kənd təsərrüfatının inkişafı ilə bağlı müasir tənzimləmə və dəstək mexanizmlərinin ölkəmizdə geniş tətbiqinə real zəmin yaranıb.***

Aqrar sahədə müsbət inkişaf dinamikası bu il də davam edib. Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildirilir ki, cari ilin ilk 6 ayı ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi istehsal həcmi 13 faiz, o cümlədən bitkiçilik məhsullarının həcmində 25,6 faiz (1,77 milyard manat), heyvandarlıq məhsullarının həcmində 2,9 faiz artım (1,9 milyard manat) qeydə alınıb. Aqrar sahənin Ümumi Daxili Məhsulda payı 5,6 faizə çatıb.



Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında kartof istehsalı 10,3 faiz, taxıl istehsalı (qarğıdalı da daxil olmaqla) 40,7 faiz, tərəvəz istehsalı 13,8 faiz, meyvə və giləmeyvə istehsalı 21,1 faiz, bostan məhsulları istehsalı 37,5 faiz artıb. Cari ilin 6 ayı ərzində ölkədə 335,7 min ton kartof, 2541,7 min ton taxıl (qarğıdalı da daxil olmaqla), 675,1 min ton tərəvəz, 125,2 min ton meyvə və giləmeyvə, 54,8 min ton bostan məhsulları istehsal olunub.

Bu ilin ilk yarısında ölkədə heyvandarlıq məhsullarının istehsalında da ciddi artım qeydə alınıb. Diri çəkidə ət istehsalı 3 faiz, süd istehsalı 2 faiz, yumurta istehsalı 4,5 faiz, yun istehsalı 0,8 faiz artıb. Yanvar-iyun aylarında ölkədə 252,5 ton diri çəkidə ət, 1037,2 ton süd, 926,9 milyon ədəd yumurta, 14,6 min ton yun istehsal olunub.

Cari ilin 6 ayı ərzində 411,8 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunub. Kənd təsərrüfatı məhsullarının ixrac həcmi ötən ilin müvafiq dövrünə nəzərən 27,9 faiz artıb. Yanvar-iyun aylarında ölkədən 181,3 milyon dollar dəyərində kartof və tərəvəz məhsulları, 137,2 milyon dollar dəyərində meyvə, 75,7 milyon dollar dəyərində pambıq lifi, 6,4 milyon dollar dəyərində tütün xammalı ixrac olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında ölkədən meyvə ixracı 42,2 faiz artıb.

Dövlət dəstəyinin genişləndirilməsi sayəsində ölkədə taxılçılıq ildən-ilə inkişaf edir. Bu ilin taxıl mövsümünün uğurlu nəticələri də bunu təsdiqləyir. Taxıl biçini Aran bölgəsində mayın 25-də başlayıb və iyulun 10-na kimi ümumi əkin sahəsinin 90 faizində əkin başa çatdırılıb. Qalan 10 faizi isə yüksək dağlıq ərazilərdə yerləşən taxıl sahələri olduğu üçün onların da biçini məhsul yetişdikcə davam etdirilib.

Cari il əsas taxıl biçini dövrü ötən illə müqayisədə 20 gün tez başa çatıb və 3 milyon 228 min 330 ton məhsul toplanıb. Respublika üzrə taxıl istehsalının orta məhsuldarlığı 31,3 sentner, o cümlədən buğda üzrə orta məhsuldarlıq 32,4 sentner, arpa üzrə isə 29,7 sentner təşkil edib. Ötən illə müqayisədə buğdanın məhsuldarlığı 2,3 sentner, arpanın məhsuldarlığı isə 1,8 sentner artıb. 2018-ci illə müqayisədə bu il 200 min tondan artıq buğda və arpa məhsulu toplanıb.

Xatırladaq ki, 2017-ci ildə ümumi taxıl məhsulları cəmi 2,9 milyon ton olub, keçən il isə 3 milyon ton taxıl tədarük edilib.

Aqrar elmlər üzrə fəlsəfə doktoru Xosrov Musayevin sözlərinə görə, aqrar elmin qarşısında duran əsas məsələ intensiv texnologiyanı tətbiq etməklə, yəni vahid əkin sahəsindən məhsuldarlığı artırmaqla əhalinin taxıl və taxıl məhsullarına tələbatının tam ödənilməsinə nail olmaqdır. Mütəxəssisin fikrincə, taxılçılıqda yüksək məhsuldarlığa nail olmaq üçün növbəli əkin sisteminin tətbiqi, yüksək reproduksiyalı, yerli şəraitə uyğun toxumlardan istifadə, becərilmə texnologiyasında aqrotexniki qulluq işlərinin düzgün yerinə yetirilməsi, suvarma, yemləmə gübrələrinin verilməsi, alaqlarla və zərərvericilərlə mübarizə tədbirlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi əsas şərtlərdir.

Ölkəmizin əlverişli təbii iqlim şəraiti payızlıq taxıldan 60-70 sentner və daha çox məhsuldarlıq əldə etməyə imkan verir. Səpin taxılçılıqda ən vacib məsələlərdən biridir. Səpinin keyfiyyətli aparılması üçün sahə yaxşı malalanmalı və hamar olmalıdır. Taxıl səpini oktyabrın 20-dən noyabrın ortalarınadək hektara 220-230 kiloqram toxum olmaqla həyata keçirilməlidir. Onun sözlərinə görə, fermer və digər kəndli təsərrüfatlarının rəhbərləri göstərilən aqrotexniki qulluq işlərini vaxtında və keyfiyyətlə yerinə yetirməklə, yüksək taxıl məhsulunun əldə edilməsinə nail ola bilərlər.

Kənd Təsərrüfatı Nazirliyindən bildirildiyinə görə, gələn il Azərbaycanda buğda istehsalçıları hər hektar əkin sahəsinə görə dövlətdən 200 manat subsidiya alacaqlar. Məlumata görə, bununla bağlı qərar Aqrar Subsidiya Şurasının avqustun 29-da keçirilən iclasında, Prezident İlham Əliyevin bu il iyunun 27-də təsdiqlədiyi "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydası"na əsasən qəbul edilib.

Qərara görə, fermerlərə subsidiya verilməsi üçün müxtəlif bitki növləri üzrə əkin əmsalları müəyyənləşdirilib. Həmin əmsallar baza məbləğinə (200 manat) vurulacaq və bu yolla əkin subsidiyalarının məbləği dəqiqləşəcək.

Çəltik istehsalçılarına isə hər hektar əkin sahəsinə görə, 280 manat subsidiya ödəniləcək. Bu bitki üzrə əkin əmsalı 1,4-dür. Amma bütün çəltik əkənlər subsidiya ala bilməyəcək. Bu imtiyazdan yalnız Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonlarında çəltik əkənlər faydalanacaq. Başqa sözlə, məhz bu rayonlarda çəltikçiliyin inkişaf etdirilməsi qarşıya əsas məqsəd kimi qoyulub.

Soya və sorqo istehsalçıları üçün isə hər hektar əkin sahəsinə görə subsidiyanın məbləği müvafiq olaraq 260 manat və 100 manat olacaq. Bu bitkilər üzrə əkin əmsalları 1,3 və 0,5-dir.

Digər dənli və dənli paxlalılar (arpa, çovdar, darı, vələmir, noxud, mərci və s.) üçün isə əkin əmsalı 0,8 müəyyən edilib. Yəni, bu bitkiləri becərənlər hər hektar əkin sahəsinə görə 160 manat subsidiya alacaqlar.

Qarabaşaq və yer fındığı istehsalçılarına isə hər hektar əkin sahəsinə görə 180 manat subsidiya veriləcək. Bu bitkilər üzrə əkin əmsalları 1,8-dir.

Zəfəran istehsalçılarının isə hər hektar əkin sahəsinə görə 400 manat subsidiya gözləyir. Bu bitki üzrə əkin əmsalı 2-dir.

***"Xalq qəzeti"***

## *Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdikləri fərdi jurnalist yazıları müsabiqəsinin elanı*

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu DOST (Dayanıqlı və Operativ Sosial Təminat) konsepsiyası əsasında innovativ yeniliklərin tətbiqi ilə dövlət sosial xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkili sahəsində aparılan islahatlarla əlaqədar birgə fərdi jurnalist yazıları müsabiqəsi elan edir.

**Müsabiqənin məqsədi**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial islahatlar proqramının nailiyyətlərindən biri kimi dövlət sosial xidmətlərinin təşkilində DOST layihəsi əsasında innovativ yenilikləri, optimal və effektiv idarəçiliyi ehtiva edən yeni keyfiyyət mərhələsinə keçidin təmin olunması və sosial sahə üzrə genişmiqyaslı xidmətlərin əhaliyə vahid standartlar əsasında "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi ilə təşkilində layihənin mühüm üstünlükləri barədə geniş ictimai məlumatlandırmada peşəkar jurnalist əməyinin stimullaşdırılması.

**Müsabiqənin mövzusu**

**"DOST mərkəzləri müasir Azərbaycanın siması kimi"**

**Müsabiqədə iştirak**

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

**Müsabiqəyə təqdim olunan yazılara aid tələblər**

1. Dərc olunmuş yazının sərlövhəsi təklif olunmuş mövzu ilə eyni olmalıdır.
2. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
3. Qəzet və jurnallarda çalışan jurnalistlərin yazıları yalnız çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır. İnformasiya agentliklərində, sayt və portallarda çalışan jurnalistlər yazılarını həmin saytlarda yerləşdirməli və linki məqalənin yazıldığı diskdə təqdim etməlidirlər.
4. Yazı son bir ildə, həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı" ya düşməyən mətbuat orqanlarında dərc edilməli, eyni zamanda saytlarda yerləşdirilməlidir.
5. Dərc olunmuş yazıda "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün" qeydi göstərilməlidir.

**Aşağıdakı redaksiyaların yazıları müsabiqəyə qəbul edilmir**

Azərbaycan jurnalistlərinin I qurultayında qəbul olunmuş Azərbaycan jurnalistlərinin peşə (etik) davranış qaydalarını pozması ilə əlaqədar haqqında Azərbaycan Mətbuat Şurası tərəfindən müvafiq qərar çıxarılan;

a) Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşən qəzet və ya saytlar.

b) Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"dan çıxarılan qəzetlər və ya saytlar (1 il müddətində).

c) Azərbaycan Mətbuat Şurası tərəfindən xəbərdarlıq almış qəzetlər və ya saytlar (6 ay müddətində)

**Yazıların qəbul qaydaları**

1.Yazının dərc olunduğu mətbuat orqanı (qəzet) 1 nüsxə
2.Yazının elektron variantı (Times New Roman (12) şriftində - CD diskdə) 1 nüsxə
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməlidir) 3 nüsxə
4.Yazıların həcmi: 1 səhifə (A3) olmalıdır (9-11 min işarə)

**Tələb olunan sənədlər**

1. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya sistemindən çıxarılmış əmək müqaviləsi bildirişi.
2. İştirakçı haqqında məlumat cədvəli (möhür, müəllif və baş redaktorun imzası ilə)
3. Şəxsiyyət vəsiqəsinin surəti,
4. Şəxsi VÖEN və surəti ,
5. Şəxsi bank rekvizitləri (şəxsi VÖEN əsasında açılmış bank hesabı. Hesabın aktiv olması təsdiqlənməlidir).

Qeyd: İştirakçı haqqında məlumat cədvəlini əldə etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna müraciət edə bilərsiniz.

Tələb olunan sənədlər tam olmadığı və ya həqiqəti əks etdirmədiyi hallarda yazı müsabiqəyə buraxılmır.

Fonda təqdim edilmiş yazılar və sənədlər geri qaytarılmır.

Yazıların qəbulu 24 iyul 2019-cu il tarixində başlayır, 27 sentyabr 2019-cu il tarixində başa çatır.

Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna şəxsən təqdim olunmalıdır.

**Qiymətləndirmə meyarları:**

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- materialın oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;
- ictimai maraqların müdafiəsi.

**Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat);
II yer üçün 2 nəfər (800 manat);
III yer üçün 3 nəfər (500 manat)
yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, 5 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafı Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

**Ünvan: Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.**
**Əlaqə telefonları: (012) 537 19 41; (012) 537 19 45;**
**Elektron ünvan: info@kivdf.gov.az, kivdf.info@gmail.com**


**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası**

***Elektron xidmətlər portalına texniki dəstək göstərilməsi xidmətinin satın alınması üçün***

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Xidmət göstərilməsinin ümumi müddəti 12 (on iki) ay olmaqla Azərbaycan dilində tərtib edilmiş kotirovka sorğusuna aid şərtlər toplusunda göstərilən cədvələ uyğun xidmət göstərilməsinin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər əsas şərtlər toplusunu Bakı şəhəri, Bülbül prospekti 27 nömrəli ünvandan – Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasından əldə edə bilərlər (əlaqələndirici şəxs – Ələmgulu Quliyev. alamgulu.guliyev@fimsa.az telefon- (+99412) 493-50-58/346; Faks: +99412 498-12-14). İddiaçılar imzalanıb möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) 16 sentyabr 2019-cu il saat 17.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Kotirovka sorğusu proseduru Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasının 3-cü mərtəbəsində 17 sentyabr 2019-cu il saat 11.00-da başlanacaqdır. Kotirovka sorğusunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsi və digər müddəaları ilə müəyyənləşdirilmiş bütün meyarlara cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim etmiş malgöndərən qalib hesab olunacaqdır. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.



**Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi**

***penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin və mühafizə alayının tibbi sanitar hissələrində cari təmir işlərinin satın alınması ilə əlaqədar***

**AÇIQ TENDER ELAN EDİR**

Tender 1 (bir) lot üzrə keçirilir.
Lot-1. Cari təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı, Nərimanov rayonu, C.Hacıbəyli küçəsi 16 və 18 nömrəli ünvanlarda Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsindən (əlaqələndirici şəxs – Əliyev Emin İman oğlundan, telefon- 012-493-36-32 ) ala bilərlər.

İştirak haqqı 100 manatdır.

İddiaçılar iştirak haqqını aşağdakı hesaba köçürməlidirlər.

Təşkilatın adı- 9 Saylı Xəzinə İdarəsi
H\h-AZ31CTRE00000000000002478301
VÖEN-1400421021
Bank- DXA
Kod-210005
M/h-AZ41NABZ01360100000000003944
SWIFT-CTREAZ22
Büdcə təsnifat kodu-142340
Büdcə səviyyə kodu-7 ƏN-nin Tibb Baş İdarəsi

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Üstünlük Azərbaycan dilinə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 4 oktyabr 2019-cu il saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 oktyabr 2019-cu il saat 18.00-a qədər, Bakı şəhəri, Ceyhun Hacıbəyli küçəsi 16 və 18 nömrəli ünvanlarda ƏN Tibb Baş İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 oktyabr 2019-cu il saat 11.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

"Xalq qəzeti"nin 10 sentyabr 2019-cu il tarixli nömrəsində Bakı Şəhər Nizami Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin Bakı şəhəri Nizami rayonu Q.Qarayev prospekti 71 nömrəli binanın qarşısındakı və A.Manafov küçəsindəki istirahət parkının yenidən qurulması və abadlıq işlərinin satın alınması üçün 2 lotdan ibarət dərc edilmiş açıq tenderi ayrı-ayrı tender kimi hesab olunur.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyəti aşağıdakı obyektlərin tikintisi üçün 2019-cu il iyulun 19-da keçirdiyi tenderin qalib təşkilatları ilə müqavilə bağlamışdır.

**1.** Araz çayının yeni qolundan suyun təzə suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi (I mərhələ ərazisinin qrunt sularının aşağı salınması tədbirləri) – "M sott" MMC.

**2.** Goranboy rayonunun Erkəc kəndi ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi –"Qarabağ-ER" MMC.

**3.** Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi- "Altus" MMC.

***Tender komissiyası***



**Beyləqan Rayon Mərkəzi Xəstəxanası**

**2019-cu ildə aşağıdakı xidmətlərin satın alınması üçün**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Lot-1.Cari təmir işlərinin satın alınması.
Lot -2. Əsaslı təmir işlərinin satın alınması.

İştirak üçün təkliflər 16 sentyabr 2019-cu il saat 16.00-a qədər Rayon Mərkəzi Xəstəxanasına təqdim olunmalıdır.

**Ünvan- Beyləqan rayonu, S.Qazıyeva küçəsi 21.**

**Əlaqə telefonları - 02122 - 52-3-44, 02122 - 51-4-62.**



**"Sosialtikinti" ASC səhmdarlarının nəzərinə!**

28 oktyabr 2019-cu il saat 10.30-da "Sosialtikinti"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2018-ci il üçün maliyyə balansının təsdiq edilməsi.
**2.** Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi.
**3.** Müşahidə şurasının, icra orqanının və maliyyə–təftiş müfəttişinin seçilməsi.
4.Cari məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətə müraciət edə bilərlər.

**Əlaqə telefonu-012-456-45-87.**
**Ünvan-Bakı şəhəri, Nizami rayonu, Oqtay Vəliyev küçəsi 66.**

# Xarici xəbərlər

## Çin

### Cek Ma istefa verib



"Alibaba" şirkətinin təsisçisi Cek Ma direktorlar şurasının sədri vəzifəsindən istefa verib. Onu bu postda baş direktor Deniel Can əvəzləyəcək. Bununla yanaşı, şirkətin banisi kompaniya tərəfindən vacib qərarların qəbul olunmasında önəmli rol oynayacaq.

Xatırladaq ki, Cek Ma hələ ötən il sentyabrın 10-da bir il sonra istefaya gedəcəyi barədə məlumat vermişdi.

**Məlumatı "Bloomberg" yayıb.**

### Müsbət saldo artıb



Çinin xarici ticarət dövriyyəsi 2019-cu ilin yanvar-avqust ayları ərzində ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 faiz artıb. Bəhs edilən dövrdə ixrac 6,1, idxal isə 0,8 faiz artıb. Nəticədə xarici ticarətdə müsbət saldo təqribən 249,6 milyard dollara çatıb.

**Xəbəri "Sinxua" verib.**

## Almaniya

### Gələcək elektromobilindir



"Porsche" şirkəti yeni istehsal etdiyi "Taycan" adlı ilk elektromobilini müştərilərə təqdim edib. Yeni modelin təqdimatı Kanada, Almaniya və Çində keçirilib. İcraçı direktor Oliver Blume deyib ki, bu elektromobil şirkət üçün yeni dövrün başlaması deməkdir. Bildirilir ki, "Porsche Taycan" "Turbo" və "Turbo S" versiyalarında satışa çıxarılacaq. Qeyd edilir ki, elektromobil 761 at gücünə malikdir və saatda 100 kilometr sürəti 2,8 saniyəyə yığır.

**Məlumatı "Autocar" yayıb.**

## Ukrayna

### Əsər geri qaytarılıb



İkinci dünya müharibəsi dövründə Ukraynadan nasistlər tərəfindən oğurlanmış rəsm əsəri Kiyevə qaytarılıb. Bildirilir ki, Dnepropetrovsk Rəssamlıq Muzeyindən İvan Qroznıya aid əsər nasistlər tərəfindən oğurlandıqdan sonra uzun müddət ABŞ-da saxlanılıb. Qeyd olunur ki, son 30 ildə əsərə sahiblik etmiş Devid və Qabriel ailəsi onun könüllü olaraq Ukraynaya qaytarılmasına razılıq veriblər.

**Xəbəri BBC verib.**

## İsveç

### İbrahimoviçə heykəl qoyulacaq



ABŞ-ın "Los-Anceles Qalaksi" futbol klubunun isveçli hücumçusu Zlatan İbrahimoviçə vətənində heykəl qoyulacaq. Bildirilir ki, heykəli İsveç Futbol Federasiyası sifariş edib. Onun hündürlüyü 2,7 metr, çəkisi 500 kiloqram olacaq. Bürünc heykəl 37 yaşlı hücumçunun doğma şəhəri Malmödə ucaldılacaq.

**Xəbəri "Futbol.ua" verib.**

*Hazırladı:*
*Elçin ABBASOV, "Xalq qəzeti"*

# DONALD TRAMP:
## Əfqanıstandan çıxmaq istəyirik...

**ABŞ Prezidenti Donald Tramp Əfqanıstandakı "Taliban" hərəkatı ilə danışıqların dayandırıldığını bildirib. Bu barədə "The New York Times" məlumat yayıb.**




– Mənim başa düşdüyümə görə, bunlar ölü danışıqlar idi, – deyə dövlət başçısı bəyan edib. – Buna baxmayaraq, Vaşinqton öz qoşunlarını Əfqanıstandan çıxarmaq istəyir və yerli hökumət "ən yaxın zamanlarda" ölkənin təhlükəsizliyi ilə bağlı "məsuliyyəti üzərinə götürməyə hazır olmalıdır.

– Bizim əsgərlər cəsurdurlar, amma onlar əslində polis iş görürlər, – deyə Tramp əlavə edib. – Biz bu ölkədən çıxmaq istəyirik, ancaq bunu müvafiq vaxtda edəcəyik.

Qəzetin yazdığına görə, indi aydın deyil ki, ABŞ Prezidentinin qəzəbli bəyanatı talibanlarla danışıqların tamamilə dayandırılması deməkdir, ya yox. Bir qədər əvvəl Rusiya XİN də bildirmişdi ki, danışıqların dayandırılması vəziyyətə mənfi təsir edə, emosiyaların artması hərbi qarşıdurmalara gətirib çıxara bilər.

Xatırladaq ki, Tramp sentyabrın 8-də Kabildə baş vermiş terror aktı ilə əlaqədar "Taliban"la və Prezident Əşrəf Qəni Əhmədzay ilə danışıqların dayandırıldığını elan etmişdi. Son aylar ərzində ABŞ tərəfinin apardığı danışıqlar atəşin dayandırılmasını və xarici qoşunların Əfqanıstandan çıxarılmasını nəzərdə tuturdu. Əgər bununla bağlı müqavilə talibləriə razılaşdırılsaydı, Amerika qoşunları sənədin imzalanmasından sonra 135 gün ərzində ölkədən çıxarılmalı idi.

Qeyd edək ki, "Taliban" Əfqanıstanda 1996-2001-ci illərdə hakimiyyətdə olub, devrildikdən sonra isə Əfqanıstan və Pakistanda hökumət qoşunlarına və NATO qüvvələrinə qarşı partizan müharibəsi aparıb. Hazırda hökumət talibləriə siyasi kompromis əldə etməyə çalışır.

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*

# "Azercell" "ITU Telecom World 2019" beynəlxalq sərgisində

❒ ***"Azercell Telekom" MMC informasiya – kommunikasiya texnologiyaları sahəsində ilin ən mühüm hadisələrindən biri sayılan "ITU Telecom World 2019" beynəlxalq sərgi-konfransında iştirak edir. Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən sərgi İKT sahəsində innovasiyaların daha sürətli tətbiqi üçün mövcud imkanları nümayiş etdirir.***




Sərgidə Azərbaycan milli pavilyonu təşkil edilib. Pavilyonda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumları, özəl İKT şirkətləri və startaplarla birlikdə "Azercell" şirkəti də ölkəmizi təmsil edir. "Azercell" sərgi iştirakçılarını özünün yeni brend kimliyi və rəqəmsallaşma strategiyası, 4G şəbəkəsinin ölkə boyu sürətlə genişləndirilməsi sahəsində nailiyyətləri, eləcə də, biznes qurumlar və fərdi istifadəçilər üçün təqdim etdiyi geniş çeşidli innovativ xidmətləri ilə tanış edir.

Beynəlxalq Telekommunikasiya İttifaqının təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbir "Birlikdə innovasiyalar gətirərək: Əhəmiyyət kəsb edən bağlılıq" şüarı altında keçirilən sərgidə İT sahəsinin innovativ inkişaf təşəbbüsləri nümayiş etdirilir, tərəfdaşlıq və investisiya imkanları təqdim edilir. Burada dünyanın müxtəlif ölkələrinin və regionlarının təqdim etdiyi İKT texnologiyaları, layihələri və məhsulları ilə tanış olmaq mümkündür.

*"Xalq qəzeti"*

# Üç İŞİD üzvünə hökm oxunub

**TASS-ın məlumatına görə, Moskva Dairə Məhkəməsi üç nəfər İŞİD terrorçusuna hökm oxuyub. Terrorçulardan birinə 15, digərinə 13, üçüncüyə isə 10 il həbs cəzası verilib.**



Onlar Moskva regionu üzrə dəmir yollarını partlatmaq istəyirlərmiş. Əvvəllər isə Yaxın Şərqdə və Pakistanda terrorçuluqla məşğul olublar. Terrorçular hər şeyi boyunlarına alıblar.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*



# ABŞ-ın ticarət naziri Türkiyədə müzakirələr aparıb

Türkiyə ilə Birləşmiş Ştatlar arasında ticarət dövriyyəsinin həcmi 20,6 milyard dollar olub. Türkiyə ABŞ-a 8,3 milyard dollarlıq məhsul ixrac edib.

Yeri gəlmişkən, bu il sentyabrın 9-da Türkiyənin xəzinədarlıq və maliyyə naziri

**ABŞ-ın ticarət naziri Uilbur Rossun başçılıq etdiyi nümayəndə heyəti Türkiyəyə səfər edərək burada bir çox işgüzar görüşlər keçirib. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb.**

Amerikalı qonaqlar əvvəlcə qardaş ölkənin ən böyük iqtisadi və maliyyə mərkəzi olan İstanbulda iri biznes dairələrinin rəhbərləri ilə geniş müzakirələr aparıblar.

Sentyabrın 8-də ABŞ-ın nümayəndə heyəti İstanbuldan Ankaraya gəlib.

Türkiyənin ticarət naziri Ruhsar Pekcan amerikalı həmkarı ilə keçirdiyi görüşdə rəsmi Ankaranın Türkiyə ilə ABŞ arasında iqtisadi, siyasi, mədəni əlaqələrin gücləndirilməsinə böyük önəm verdiyini bildirib.

Nazirlər iki ölkə arasında ticari əlaqələrin genişləndirilməsinin xüsusilə vacib olduğunu vurğulayıblar, təmsil olunduqları hökumətlərin bütün lazımi addımları atmağa hazır olduğunu dilə gətiriblər.

Türkiyə Statistika İdarəsinin məlumatına görə, 2018-ci ildə Berat Albayrak da ABŞ-ın ticarət naziri ilə görüşüb. B.Albayrak görüşün nəticələrini şərh edərkən öz "Twitter" səhifəsində qeyd edib ki, yaxın gələcəkdə iki ölkə arasında ticarət dövriyyəsinin həcmini 100 milyard dollara çatdırmaq mümkündür və hər iki tərəf bu hədəfə nail olmaq əzmindədir.

*M.HACIXANLI,*
*"Xalq qəzeti"*

# Ticarət sazişi Nyu-Yorkda imzalana bilər



**Birləşmiş Ştatlarla Yaponiya arasında ticarət sazişi sentyabrın sonlarında Nyu-Yorkda keçiriləcək BMT Baş Məclisinin sessiyası zamanı imzalana bilər. Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.**

Mənbə qeyd edir ki, bu, ötən ay Yaponiyanın Baş naziri Sindzo Abe ilə ABŞ Prezidenti Donald Tramp arasında mal əti, sənaye məhsulları və digər sahələrlə əlaqədar əldə olunan geniş razılaşmada öz əksini tapıb.

Yeri gəlmişkən, ABŞ-ın maliyyə naziri Stiven Mnuçin bu günlərdə Ağ evdə jurnalistlərə açıqlamasında danışıqların uğurlu keçdiyini və razılaşmanın yaxın zamanlarda imzalanacağını bildirib.

Eyni zamanda, ABŞ-ın dövlət katibi Mayk Pompeo da "Twitter" səhifəsində məhz D.Trampın səyləri nəticəsində Yaponiya ilə kənd təsərrüfatı, rəqəmsal texnologiyalar və sənaye məsələləri ilə bağlı konsensusun əldə edildiyini yazıb.

M.Pompeo qeyd edib ki, o, danışıqların BMT Baş Məclisi zamanı başa çatmasını səbirsizliklə gözləyir.

Bununla yanaşı, D.Trampın gələcəkdə Yaponiyadan avtomobillərin idxalına daha yüksək tariflər tətbiq etmək üçün imkan saxladığı da qeyd edilir.

*Mahmud QƏRİBOV,*
*"Xalq qəzeti"*

# Birjalarda neftin qiyməti artmaqda davam edir

❒ ***Dünya bazarında "qara qızıl"ın qiyməti artmaqda davam edir. Londonun "İCE" Birjasının məlumatına görə, "Brent" markalı neftin qiyməti 0,5 faiz artaraq bir bareli 63,12 dollar olub.***



Sonuncu dəfə bu göstərici bu ilin avqust ayında qeydə alınıb. Nyu-York Əmtəə Birjasının məlumatına görə, ABŞ-ın Texas sortu adlandırılan "WTI" markalı neftinin qiyməti 0,4 faiz artaraq bir bareli 56,80, Azərbaycanın "AzeriLight" markalı neftinin qiyməti 0,7 faiz artaraq bir bareli 65,20 dollar olub.

"Bloomberg"in məlumatına görə, Səudiyyə Ərəbistanının Kralı ölkənin energetika naziri Xalid Əl-Falihi vəzifəsindən azad edib. Məsələ burasındadır ki, Krallığın ehtimalına görə dünya bazarında "qara qızıl"ın bir bareli 80 dollar olmalı idi. Xalid Əl-Falihin yerinə şahzadə Abdulaziz energetika naziri təyin edilib.

Ekspertlər bildiriblər ki, neftin qiyməti artmaqda davam edəcək. OPEC+ ölkələri "qara qızıl"ın qiymətini sabitləşdirmək üçün əllərindən gələni edirlər.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Hava proqnozu

➲ **Sentyabrın 11-də**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 17-20, gündüz 24-27, Bakıda gecə 17-19, gündüz 24-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10, gündüz 12-17 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı,arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Şərq küləyi əsəcək. Gecə 11-16, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 9-14, gündüz 18-23 , dağlarda gecə 2-7, gündüz 10-15 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə şimşək çaxacağı,arabir yağış yağacağı, duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Gecə 16-20, gündüz 23-28 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Yağış gündüz tədricən kəsiləcək. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Gecə 16-18, gündüz 21-25 , dağlarda gecə 8-12, gündüz 13-17 dərəcə isti olacaq.

# Ermənistan atəşkəs rejimini 23 dəfə pozub

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Xıdırlı, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən ordumuzun mövqeləri atəşə tutulub.

✓ *DƏDRX-nin Bakı şəhəri Ərazi İdarəsi tərəfindən Abbaszadə İbrahim Böyük oğlunun adına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır. (Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbəsi 180 "A" saylı bağ sahəsi)*

BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 7796
SİFARİŞ 3011
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00